

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 116 (23.278)

26 iyun 2019-cu il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Ramil Usubovu Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunması münasibətilə qəbul edib.

Dövlətimizin başçısı Ramil Usubovun uzun illər Daxili İşlər naziri vəzifəsini uğurla icra etdiyini bildirib. Bu gün Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunduğunu vurğulayan Prezident İlham Əliyev ölkə qarşısında duran vəzifələrin lazımi səviyyədə icrası üçün təhlükəsizlik tədbirlərinin daim gündəlikdə olmasının önəmini qeyd edib. Prezident İlham Əliyev Ramil Usubovun Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifənin öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə edib və ona fəaliyyətində uğurlar arzulayıb.

Ramil Usubov ona etimad göstərib Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifəyə təyin edilməsi ilə əlaqədar dövlətimizin başçısına minnətdarlığını ifadə edib. O bildirib ki, Daxili İşlər naziri vəzifəsində çalışdığı uzun illər ərzində rəhbərlik etdiyi nazirlik öz fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin, sonrakı dövrlərdə isə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısını daim hiss edib. Ramil Usubov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sabitliyin, əmin-amanlığın təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin böyük əhəmiyyət daşıdığını xüsusi olaraq vurğulayıb. O, Təhlükəsizlik Şurasının katibi vəzifəsində ona göstərilən yüksək etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəyini bildirib.



## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasının çağırılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası 2019-cu il iyun ayının 28-də saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2019-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları

2. Naxçıvan Muxtar Respublikasının 2018-ci il dövlət büdcəsinin icrasının təsdiq edilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 iyun 2019-cu il*

## Naxçıvanda taxıl biçini mütəşəkkil aparılır





Naxçıvan Muxtar Respublikasında bu ilin məhsulu üçün 33 min 308 hektar sahədə taxıl əkilmişdir. İyunun 10-dan etibarən taxıl biçininə başlanılmışdır. Yaradılan şərait, texnika və kombayn təminatı biçin kampaniyasının itkisiz aparılmasına imkan verir.

İyunun 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsinə gəlmiş, taxıl biçininin gedişi ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, toxumçuluq təsərrüfatı tərəfindən bu ilin məhsulu üçün 1037 hektar sahədə taxıl əkilmişdir. Əkin şırım üsulu ilə aparılmış, yerli iqlim şəraitinə uyğunlaşdırılmış yüksək məhsuldar "Qobustan", "Quality" və "Bezost" toxum sortlarından istifadə olunmuşdur. Əraziyə normalara uyğun gübrə verilməsi taxılın vegetasiya dövründə daha yaxşı inkişafına səbəb olmuşdur. Biçinə təsərrüfatın 6 kombaynı cəlb edilmiş, mexanizator və kombaynçılar üçün lazımi şərait yaradılmışdır. Bu günə qədər 173 hektar sahə biçilmişdir. Biçilən ərazi ardıcıl şəkildə şumlanır ki, bu da növbəti ilin məhsuldarlığına mühüm təsir göstərir. Hazırda ərazidə məhsuldarlıq 30 sentnerə yaxındır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Muxtar respublikada kənd təsərrüfatının inkişafı sahəsində görülən işlər öz nəticəsini verir. Daxili bazarın qorunması, mütərəqqi suvarma şəbəkələrinin qurulması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, texnika və gübrə təminatı, istehsal olunmuş məhsulun satışı üçün hərtərəfli şəraitin yaradılması taxılçılığın inkişafına səbəb olmuşdur. Hazırda muxtar respublikada taxıl biçini aparılır. Biçinə 100-ə yaxın kombayn cəlb olunmuşdur. Yaradılan şərait, xüsusilə taxıl və qarğıdalının alış qiymətlərinin artırılması həm məhsul istehsalına, həm də bu yolla əhalinin məşğulluğunun təmin olunmasına stimul verir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada taxıla olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, taxıl əkini sahələri və məhsuldarlıq artırılmalı, tələbat 100 faiz yerli istehsal hesabına ödənilməlidir. "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin taxıl əkini sahəsi də vaxtilə istifadə olunmayan torpaqlardır. Lakin yaradılan şərait, qapalı suvarma şəbəkəsinin qurulması uzun illər istifadəsiz qalmış bu torpaqlarda bol məhsul istehsal etməyə imkan verir. Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, su və texnika təminatı sahəsində işlər bundan sonra da davam etdiriləcəkdir.

Ali Məclisin Sədri "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivinə təşəkkürünü bildirmiş, muxtar respublikanın toxuma olan tələbatının yerli istehsal hesabına ödəniləcəyinə əminliyini ifadə etmişdir.

Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov rayonda əkinçiliyin, o cümlədən taxılçılığın inkişafı üçün ardıcıl tədbirlərin görüldüyünü bildirmiş, yaradılan şəraitə görə rayonun torpaq mülkiyyətçiləri və bütün sakinləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Muxtar respublikada taxıl biçinində iştirak edən kombayn, maşın və mexanizmlərin davamlı işləməsi təmin edilmiş, zəruri ehtiyat hissələri alınmış, texniki xidmət təşkil olunmuşdur. Həmçinin taxıl zəmilərində yanğın təhlükəsizliyi tədbirləri də diqqətdə saxlanılmışdır.

Ali Məclisin Sədri taxıl biçininin iyulun 25-dək başa çatdırılması, növbəti əkin mövsümündə dəmyə əkininə daha çox üstünlük verilməsi, eləcə də torpaq mülkiyyətçilərinin sifarişlərinə uyğun texnikaların alınıb gətirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günüdür*

# Müstəqilliyimizin və dövlətçiliyimizin qarantı

***Ordu hər bir ölkənin təhlükəsizliyinin qarantıdır. Tarix də dəfələrlə sübut edib ki, güclü, qüdrətli ordusu olmayan dövlət öz müstəqilliyini qoruyub saxlamaq iqtidarında deyil. Buna görə də hər bir azad, müstəqil dövlət öz ordusunun nüfuzu ilə tanınır. Qədim və zəngin dövlətçilik tarixinə malik Azərbaycanda da ordu quruculuğu daim prioritet məsələlərdən olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə ölkəmizdə ilk dəfə Əlahiddə Azərbaycan Korpusu yaradılmış, bununla da Milli Ordumuzun əsası qoyulmuşdur. Lakin Xalq Cümhuriyyətinin süqutu nəticəsində Azərbaycanın hərbi nazirliyi də rəsmən ləğv olunmuşdur. Bundan sonra Azərbaycanda yeni milli ordunun formalaşdırılması tam 70 il sonraya təsadüf etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə isə Əlahiddə Azərbaycan korpusunun yarandığı tarix – iyunun 26-sı Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan olunmuşdur.***







Ölkəmizdə güclü, nizami və yüksək döyüş hazırlığına malik ordunun yaradılması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlayaraq digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm addımlar atılmışdır. Görkəmli dövlət xadiminin gələcəyə hesablanmış uzaqgörən siyasətinin nəticəsində ötən əsrin 70-ci illərində ölkəmizdə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması, bu mənada, mühüm əhəmiyyət daşıyır. Dahi liderin birbaşa şəxsi təşəbbüsü ilə hazırlanan hərbçi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli Milli Ordusunun peşəkar komandan heyətini təşkil etmişdir. Bu cür peşəkar ordunun yaradılmasına isə ötən əsrin 90-cı illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda başlanılmışdır. Belə ki, xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradılmış, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında” Qərar qəbul edilmişdir. Həmin il oktyabr ayının 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirilmişdir. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmiş və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verilmişdir.

1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda Silahlı Qüvvələrin təkmilləşməsi prosesi yeni mərhələyə qədəm qoymuş, ordu quruculuğu diqqət mərkəzində saxlanılmışdır. Qısa müddətdə ordumuzun strukturu tam formalaşdırılmış, bütün növ hərbi birləşmələr yaradılaraq komplektləşdirilmişdir. Eyni zamanda görkəmli dövlət xadiminin rəhbərliyi ilə ordunun qanunvericilik bazası yaradılmış, “Silahlı Qüvvələr haqqında”, “Hərbi xidmət haqqında”, “Hərbi qulluqçuların statusu haqqında” qanunlar qəbul edilmişdir. Bundan əlavə, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulmasına diqqət yetirilmiş, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun “Sülh Naminə Tərəfdaşlıq Proqramı”na qoşulmuşdur. Hazırda Silahlı Qüvvələrimizin əsgərləri sülhməramlı qismində müxtəlif münaqişə zonalarında iştirak edirlər.

Əsası ulu öndərimiz tərəfindən qoyulan ordu quruculuğu işi bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizin dinamik inkişafı ordumuzun büdcəsinin artmasına, nəticə etibarilə, Silahlı Qüvvələrimizin döyüş arsenalının ən müasir silah və sursatlarla təminatına şərait yaratmışdır. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Bu sahədə görülmüş işlərdən ən diqqətçəkəni muxtar respublikanın təhlükəsizliyinin qorunması məqsədilə dövlət başçısının “Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılmasıdır. Bu əlamətdar hadisə Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaratmışdır. Ölkə Prezidenti bu barədə demişdir: ***“Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.***

Bu gün muxtar respublikamızda ordu quruculuğu sahəsində mühüm işlər görülür. Hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Bir faktı qeyd etmək yerinə düşər ki, son illər muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Bununla yanaşı, Naxçıvanda xalq-ordu birliyi özünün ən yaxşı ifadəsini tapmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tez-tez sərhəd bölgələrindəki hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin həyat tərzi və problemləri ilə mütəmadi olaraq maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olmuşdur.

Məhz görülən işlərin sayəsində Əlahiddə Ümumqoşun Ordu 2017 və 2018-ci illərdə döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülmüşdür. 2017-ci il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi parad ordumuzun Naxçıvanda yerləşən hissələrinin gücünü bütün dünyaya nümayiş etdirmişdir. Ötən il may ayının sonlarında Əlahiddə Ümumqoşun Ordunun 26 il işğal altında olan Şərur rayonunun Günnüt kəndini və 11 min hektar ərazini azad edərək mühüm strateji üstünlüklərə yiyələnməsi isə bu gücün praktik nəticəsini ortaya qoymuşdur. Bu yaxınlarda isə Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələri bölmələrinin birgə döyüş atışlı “Sarsılmaz qardaşlıq – 2019” taktiki təliminin nəticələri onu göstərdi ki, Naxçıvan ordusu istənilən təhdidə layiqli cavab verməyə, istənilən tapşırığı yerinə yetirməyə tam hazırdır.

Türkiyə və Azərbaycan Silahlı Qüvvələri rəhbərlərinin iştirak etdiyi, 5 min nəfərədək şəxsi heyətin, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 ədəd təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnikaların cəlb olunduğu bu möhtəşəm təlim düşmənlərimizə əsl gözdağı oldu. Keçirilən təlimlə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Ordu quruculuğu tədbirləri sırasında hərbi təlimlərin əhəmiyyəti böyükdür. Çünki təlimlər əsgər və zabitlərdə hərbi vərdişləri formalaşdırır, onların döyüş hazırlığını artırır. Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürk deyirdi ki, “Hər hansı bir ordunun dəyəri onun əsgər və komandan heyətinin dəyəri ilə ölçülür”. Azərbaycan-Türkiyə birgə hərbi təlimində qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi bir daha əminlik yaratdı ki, təlimə cəlb olunmuş şəxsi heyətlərdə yüksək döyüş hazırlığı vardır”.***

“Sarsılmaz qardaşlıq – 2019” birgə döyüş atışlı taktiki təlim bir daha onu göstərdi ki, Naxçıvandakı ordu hissələri böyük potensiala malikdir.

Ali Məclis Sədrinin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri də hərbi kadr hazırlığı ilə bağlıdır. Ötən dövrdə göstərilən böyük dövlət qayğısı hesabına Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası möhkəmləndirilmiş, kursantlar üçün müasir tədris və məişət şəraiti yaradılmışdır. İndiyədək 3 mindən artıq kursantın məzun olduğu bu lisey ordumuzun peşəkar zabitlərlə təminatında böyük rol oynayır.

Bu gün hər birimiz ordumuzun gücü, qüdrəti ilə fəxr edirik. Ordumuzun döyüş və vətənpərvərlik ruhu, təmas bölgələrində düşmənin təxribat xarakterli hərəkətlərinə vaxtında layiqli cavab verilməsi hər birimizdə qürur hissi doğurur. Ölkəmizdə xalq-ordu birliyinin möhkəmliyi onu deməyə əsas verir ki, Azərbaycan əsgərinin xalqımıza qələbə sevincini yaşadacağı gün uzaqda deyil.

**“Şərq qapısı”**





## 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə tədbir keçirilib



Naxçıvan Dövlət Universitetində 26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycanda güclü, qüdrətli və yüksək döyüş hazırlığına malik ordu yaradılmasının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Rektor qeyd edib ki, Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilib. 2016-cı ilin Aprel döyüşləri, 2017-ci ilin may ayında Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər daxil olmaqla, 11 min hektar ərazinin Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi əməliyyat nəticəsində işğaldan azad edilməsi Azərbaycan Ordusunun gücünün və qüdrətinin göstəricisi kimi dəyərləndirilib.

Universitetin Bədən tərbiyəsi və idman kafedrasının müəllimi Nazim Həsənov “Ulu öndər Heydər Əliyev və ordu quruculuğu” mövzusunda çıxışında bildirib ki, ölkədə peşəkar ordu quruculuğunun əsası 1993-cü ildə qoyulub. Ordu quruculuğu sahəsində ulu öndərin strateji siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Tədbirdə tələbələr vətənpərvərlik mövzusunda şeirlər bədii qiraət ediblər. Sonda “Heydər Əliyev irsində hərb tarixi” adlı sənədli film nümayiş olunub.

**Səadət ƏLİYEVA**

## Ötən ay Miqrasiya Xidmətində 651 müraciətə baxılıb

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər may ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 11 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə daxil olan 651 müraciətin 117-si əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi, eləcə də Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə bağlı olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılıb, müvafiq qərarlar qəbul edilib.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 534 müraciət qeydə alınaraq icrası təmin olunub, həmin müraciətlərdən 243-ü elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib, fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

Axtarışlar, tapıntılar

# Elmə məlum olan ilk farsca-azərbaycanca lüğətin müəllifi naxçıvanlıdır

*Mənşəcə Azərbaycan türklərindən olan tarixçi, dilçi alim, filosof, mütərcim, şair, katib, dövlət xadimi Fəxrəddin Hinduşah Naxçıvani 1245-ci ildə Giran şəhərində anadan olmuşdur. Hinduşah Naxçıvaninin ailəsi Azərbaycan elminə, mədəniyyətinə bir çox görkəmli şəxslər bəxş etmişdir ki, onlar “Naxçıvani” təxəllüsü ilə tanınmışlar. Hinduşah Naxçıvani təhsilini Bağdadda məşhur “Müstənsiriyyə”də almışdır. Burada ilahiyyatı, riyaziyyatı, təbabəti, astronomiyanı və orta əsrlərdə mədrəsələrin dərs proqramlarına daxil olan digər elmləri öyrənmiş, fars və ərəb dillərinə dərindən bələd olmuşdur. O, dövrünün məşhur bilicilərindən sayılan Əl-Cüveynidən dərs almışdır.*



Hülakülər zamanında Hinduşah Naxçıvani maliyyə idarəçiliyində çalışmış və bir çox vilayətlərin hakimi təyin olunmuşdur. Eyni zamanda o, tarix, dilçilik və poeziya ilə də ciddi surətdə maraqlanmışdır. Azərbaycan və bir sıra qonşu ölkələrin ictimai-siyasi həyatından bəhs edən “Təcarüb üs-sələf” (“Sələflərin təcrübələri”) əsərinin, 1307-1308-ci illərdə ərəb dilində qələmə aldığı “Məvarid ül-ərəb” (“Ərəb mənbələri”) antologiyasının, fars dilində bir sıra məşhur şeirlərin, habelə “Əs-Sihah əl-Əcəmiyyə” (“Qeyri-ərəblərin doğruları”) adlı leksikoqrafik əsərin müəllifidir. Naxçıvaninin zəmanəmizədək bir neçə əsəri gəlib çatmışdır. Onun ərəb dilində yazdığı “Məvarid ül-ərəb” antologiyası, ərəb xəlifələrinin həyatından, Əməvilər, Abbasilər və Səlcuqilərin tarixindən bəhs edən və 1324-cü ildə tamamlanan “Təcarüb üs-sələf” (“Sələflərin təcrübələri”) əsəri dəyərli mənbələr hesab olunur. Sonuncu əsər Böyük Luristan atabəyi Yusifin oğlu Əhmədə (1295-1330) ithaf edilmişdir. Belə ehtimal olunur ki, bu, əslində, ərəb tarixçisi Məhəmməd Əli Təxtəqinin “Məniyyətül-füzəlafi təvarixül-xüləfa vəl-vüzəra” (“Xəlifələr və vəzirlər dövründə fəzilət adamlarının taleyi”) əsərinin farscaya tərcüməsidir. Mütəxəssislər bu əsəri farscaya gözəl və ifadəli bir dillə tərcümə olunmuş ilk nəsr nümunələrindən biri hesab edirlər. Müəllif tərcümə etdiyi bu kitaba düzəlişlər vermiş, əlavələr etmiş və onun həcmini, az qala, üç dəfə artırmışdır. Bu mövzuda fars dilində yazılmış ən mükəmməl əsər hesab olunan “Təcarüb üs-sələf”də müəllifin nəsli, özü, Şəmsəddin Cüveyni və başqa görkəmli şəxsiyyətlərlə bərabər, Naxçıvan barədə də məlumatlara rast gəlinir. Müəllif Giranın Naxçıvan tüməninə, Vənənd kəndinin isə Girana aid olduğunu qeyd edir və Vənənddə Şəmsəddin Məhəmməd Cüveyni (1225-1283) tərəfindən layiqli xanəgah tikildiyini, ona əmlak vəqf olunduğunu göstərir. Hinduşah Naxçıvaninin Naxçıvana olan həsrəti onun bu diyardan olduğunu bir daha təsdiqləyir. Allahdan qüvvət, şəfa diləyən müəllif özünün yenidən Nəşəva (Naxçıvan) torpağına yetirilməsini təvəqqe edir.

Onun yaradıcılığında “Əs-Sihah əl-Əcəmiyyə” adlı farsca-azərbaycanca lüğət mühüm yer tutur. Elmə məlum olan bu ilk fars və Azərbaycan dillərinin lüğəti 21 bab, 393 fəsildən ibarətdir. Bu lüğət 3 hissədən – müqəddimə (ərəb dilində), lüğət və fars dilinin qrammatikasından (ərəb dilində) ibarətdir. Birinci və üçüncü hissələr ərəbcə, lüğət özü isə farsca və Azərbaycan dilində yazılmışdır. Bundan başqa, kitaba frazeoloji birləşmələr və ayrı-ayrı ifadələr də daxil edilmişdir. Uzun müddət bu lüğət həm alimlər, həm də fars və ərəb dillərini öyrənənlər üçün faydalı olmuşdur. Lüğətin ilk köçürülmüş nüsxəsi XVI əsrin əvvəllərinə, sonuncusu isə XIX əsrin sonlarına aiddir.

Müəllif girişdə göstərir ki, kitab fars olmayanların (Azərbaycan türklərinin) bu dili öyrənməsi üçün nəzərdə tutulub. Hinduşah Naxçıvaninin “Əs-Sihah əl-Əcəmiyyə” əsəri Azərbaycan leksikoqrafiyasının əvəzsiz abidəsi kimi yüksək qiymətləndirilməlidir. Bu əsər bütün Şərq dünyasında lüğətçilik elminin inkişafında da böyük rol oynamışdır. Akademik İsmayıl Hacıyev və Şükür Məmmədovun müəllifi olduqları “Naxçıvan və naxçıvanlılar” adlı kitabda bu haqda deyilir: *“Bu əsərdə, əslində, fars dilinin türk və ərəb dillərində izah olunan ilk qrammatikası verilmişdir. “Əs-Sihah əl-Əcəmiyyə” lüğətinin Berlin, Kembric, Oksford, Tehran, Qahirə və başqa nüsxələri məlumdur. Fəxrəddin Hinduşah bu əsərində ilk dəfə olaraq türk və fars dillərinin morfoloji qanunlarını, leksikologiyasını hərtərəfli tədqiq etmiş, ümumiləşdirmiş və sistemə salmışdır”.*

XIII əsr abidəsi olan, ən qədim lüğətlərdən biri kimi, “Əs-Sihah əl-Əcəmiyyə” haqqında ilk məlumata Nemətullah ibn Əhməd ibn Mübarək ər-Ruminin “Lüğəti-Nemətullah” əsərində təsadüf olunur. Qeyd etmək lazımdır ki, XIII əsrə aid yazılı qaynaqlarımız yox dərəcəsindədir və lüğət üzərində aparılan tədqiqatlar ilk orta əsr Azərbaycan yazılı ədəbi dilinin xüsusiyyətlərini öyrənmək baxımından son dərəcə əhəmiyyətlidir. Lüğətin Sankt-Peterburq, Bodlean, Kembric, Qahirə, Bratislav, Dehxoda, Məşhəd Qüdsi Rəzəvi, Qərbi Berlin nüsxələri mövcuddur. Hinduşah Naxçıvani “Təcarib əs-sələf” əsərində Naxçıvandan uzaqda yaşadığını xatırlayaraq kədərlənir: *“Ya Rəbb! Ey məkan və zamanı yaradan, Peyğəmbəri göndərən, Quranı göydən endirən Allah! Mən dərvişə güc bəxş et, mən ürəyi yaralıya şəfa göndər. Bir də arzum var ki, məni Naxçıvan torpağına çatdırasan”*, – deyir...



Naxçıvan torpağının yetirdiyi dahilərdən kimi qəhrəmanlığı, kimisi elmi və siyasəti, kimilərisə qələmi ilə tarix səhifələrinə adlarını yazdırmışlar. Azərbaycanın səfalı və dilbər guşələrindən olan Naxçıvan özünün zəngin və qədim tarixi, coğrafi mövqeyi, qiymətli abidələri ilə birlikdə görkəmli şəxsiyyətləri ilə də tarixin yaddaşına həkk olunmuşdur. Onlardan biri də dəyərli irsi elmi tədqiqini gözləyən Hinduşah Naxçıvanidir.

**Nərgiz İSMAYILOVA**
*filologiya üzrə fəlsəfə doktoru*

---

***İyunun 25-də Bəhruz Kəngərli Muzeyində Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov tərəfindən muzeylərə hədiyyə edilmiş rəsm əsərlərinin təqdimatı keçirilib.***

# Rəsm əsərlərinin təqdimat mərasimi olub



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova bildirib ki, muzeylərə eksponat toplanması istiqamətində keçirilən növbəti təqdimat mərasimi təsviri incəsənətimizlə bağlıdır. Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov müxtəlif illərdə portret janrında yaratdığı 5 rəsm əsərini muxtar respublikada fəaliyyət göstərən muzeylərə hədiyyə edir. Bunlar böyük yazıçımız Cəlil Məmmədquluzadənin, görkəmli rəssamımız Bəhruz Kəngərlinin, Xalq şairi Xəlil Rza Ulutürkün, şəhid Qabil Orucəliyevin və Azərbaycanın Milli Qəhrəmanı Səyavuş Həsənovun portretləridir.

Hədiyyə olunan rəsm əsərləri üçün Telman Abdinova təşəkkür edən nazir deyib ki, rəssamın əsərləri muxtar respublikamızda fəaliyyət göstərən Heydər Əliyev, Naxçıvan Dövlət Tarix Muzeyi, Hüseyn Cavidin ev-muzeyi, Bəhruz Kəngərli, Xalça Muzeyi və digər mədəniyyət müəssisələri də vardır. Rəssamın hədiyyə etdiyi həmin portretlər muzeylərimizdə layiqli yerini tutacaqdır.

Bildirilib ki, Telman Abdinovun yaradıcılığı müxtəlif mövzulu və janrlı rəsm əsərləri ilə seçilir. Rəssamın çoxşaxəli və məhsuldar yaradıcılığında portret, mənzərə, qrafika, natürmort və başqa janrlı əsərlərində rəng tonu, kompozisiya, bütövlük onun istedad və zəhmətinin rəngarəngliyini ortaya çıxarır.

Natavan Qədimova vurğulayıb ki, rəssamın hədiyyə etdiyi əsərlər dəyərli eksponat kimi muzeylərimizdə qorunub saxlanılacaq və nümayiş olunacaqdır.

Mədəniyyət naziri çıxışının sonunda mədəniyyətin inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov tədbirdə çıxış edərək vurğulayıb ki, görkəmli şəxsiyyətlərin, Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban gedən şəhidlərin böyük ehtiramla yaratdığı portretlərinin muzeylərdə nümayiş etdirilməsi onun üçün iftixar hissi yaradacaqdır.

Digər çıxışlardan sonra muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

---

# Distant təlim keçirilib



*Dünən Naxçıvan Dövlət Universitetində “Dövlət idarəçiliyində innovativ texnologiyalar: Azərbaycan Respublikasının təcrübəsi” mövzusunda distant təlim keçirilib.*

Təlimin əsas məqsədi ölkənin innovativ və inklüziv inkişafı üçün hədəflərin yeni istiqamətləri ilə bağlı biliklərin dinləyicilərə çatdırılması və onlarla fikir mübadiləsinin aparılması olub.

Muxtar respublikanın şəhər və rayon İcra hakimiyyətlərində Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin aparıcı, baş və böyük məsləhətçisi vəzifələrində çalışan əməkdaşların iştirak etdiyi təlimdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov məruzə ilə çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 22 sentyabr tarixli Fərmanının icrası ilə əlaqədar təşkil edilən təlimdə akademik ümummilli lider Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışıb, ulu öndərin ideyalarının Prezident cənab İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib və bu gün Azərbaycanın iqtisadiyyatının sürətlə inkişaf etdiyini konkret faktlarla diqqətə çatdırıb.

Vurğulanıb ki, Azərbaycan Respublikası müstəqilliyini 28 il öncə bərpa etməsinə baxmayaraq, ümummilli liderin rəhbərliyi ilə qısa zamanda inklüziv və davamlı inkişaf olub. Bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq iqtidarındadır. Dövlətimizin başçısının tətbiq etdiyi və dünya miqyasında ilk dəfə işlənilmiş yeni strategik, kompensator idarəçilik texnologiyaları sayəsində Azərbaycanın inklüziv inkişaf indeksinin Avropa İttifaqına üzv olan bir çox dövlətlərin göstəricilərindən yüksək olduğu qeyd edilib.

Məruzədə beynəlxalq təşkilatlar tərəfindən 2018-2019-cu illərdə dərc edilmiş rəsmi statistik bilgilər təhlil olunub.

Təlimin sonunda iştirakçıların mövzu ilə bağlı sualları cavablandırılıb.

**Güntac ŞAHMƏMMƏDLİ**

---

# Seminar-müşavirə



*Naxçıvan Şəhər Nəqliyyat İdarəsində ictimai nəqliyyatda fəaliyyət göstərən sürücülər, dispetçerlər və xətt nəzarətçilərinin iştirakı ilə “Avtomobil nəqliyyatı ilə sərnişindaşıma sahəsində təhlükəsizliyin təmin edilməsi” mövzusunda seminar-müşavirə keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin şöbə müdiri Elxan Novruzov, sektor müdiri Natiq Həsənov çıxış ediblər.

Bildirilib ki, avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını yerinə yetirən sürücülər yol hərəkəti qaydalarına ciddi əməl etməli, avtomaşını saz vəziyyətdə saxlamalı, texniki qulluqları vaxtında həyata keçirməlidirlər. Sərnişinlərin rahatlığını və təhlükəsizliyini, onlara lazımi xidmət şəraitinin yaradılmasını təmin etmək üçün avtomobilə vaxtlı-vaxtında texniki baxış təşkil olunmalıdır.

Sonda sürücüləri maraqlandıran suallar cavablandırılıb.

**Nail ƏSGƏROV**

---

# Şərur Rayon Xalq Teatrı festivalda II yerə layiq görülüb

Xəbər verdiyimiz kimi, Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı iyun ayının 23-dən 25-dək Bakı şəhərində keçirilən III Respublika Xalq Teatrları Festivalının final mərhələsinə vəsiqə qazanmışdı. Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında təşkil edilən festivalın final mərhələsində bu teatrın kollektivi də iştirak edib. Belə ki, xalq teatrının təqdimatında böyük rus şairi Aleksandr Sergeyeviç Puşkinin “Motsart və Salyeri” faciəsi əsasında hazırlanmış tamaşa göstərilib. Tamaşanın quruluşçu rejissoru Nəsimi Məmmədzadə həm də səhnə əsərinə bədii və musiqi tərtibatı verərək maraqlı tamaşa yaratmağa müvəffəq olub. Nəsimi Məmmədzadə, eyni zamanda tamaşada Salyeri kimi mürəkkəb və ziddiyyətli bir obrazı canlandırıb. Azərbaycan Respublikasının Əməkdar artisti Neymət Sultanov isə böyük bəstəkar Motsartın obrazını tamaşaçılara ustalıqla təqdim edib. Festivalda iştirak edən on üç kollektiv arasında Şərur Rayon Xalq Teatrının “Motsart və Salyeri” tamaşası II yerə layiq görülüb. Nəsimi Məmmədzadə “Ən yaxşı rejissor”, Neymət Sultanov isə “Ən yaxşı aktyor” nominasiyaları üzrə mükafatlandırılıblar.



Bu haqda təəssüratlarını bizimlə paylaşan Neymət Sultanov bildirdi ki, Şərur Rayon Xalq Teatrı yarandığı dövrdən yeni-yeni nailiyyətlərlə müşayiət olunan zəngin bir yol keçib. Xalq teatrının səhnəsində “Motsart və Salyeri” kimi psixoloji faciənin tamaşaya qoyulması isə kollektivimizin növbəti uğurudur. O vurğulayıb ki, kollektivin nailiyyətlər qazanmasında muxtar respublikada xalq teatrlarının fəaliyyətləri üçün yaradılan şərait, xalq teatrlarının ənənəvi festivallarının təşkili əhəmiyyətli rol oynayır.

Qeyd edək ki, III Respublika Xalq Teatrları Festivalı “Azərbaycan Xalq Yaradıcılığının 2019-2023-cü illər üzrə inkişafına dair Strateji Fəaliyyət Planı”na müvafiq olaraq keçirilir. 47 xalq teatrının qatıldığı festivalın final mərhələsində 13 kollektiv iştirak edib.

**Gülcamal TAHİROVA**

# Muxtariyyətin – müstəqilliyin ordu salnaməsi
## (poema)



95 yaşıdır Naxçıvanımın,
Təbriklər səslənir onun şəstinə.
Muxtariyyət adlı bu salnamənin,
Şəhid qanı dəyib dəsti-xəttinə.

Ey ötən yüzilliyin doxsanıncı illəri,
Usanmadan sızlatdın qüssəli könülləri.
Ağrılı günlərini yaşadı qədim diyar,
Soldu açan çiçəklər, qurudu bağlarda bar.
Ermənilər göz dikdi hər qarış torpağına,
Keçdilər sovetlərin soluna, gah sağına.
Gördülər igidlərin qarşısında heçdilər,
Fitnə-fəsad törədib hiylə yolu seçdilər.
Gecə-gündüz düşünüb, xam xəyallar qurdular,
"Naxçıvan bizim", – deyə ağ yalan uydurdular.
Alınmaz qala adlı tarix yazdı Sədərək
İllərin ağrısına, acısına dözərək.
Vermədilər torpağı axıdaraq qanların,
Adı dillərə düşdü həmin mərd oğlanların.
Yox idi o illərdə güclü, qüdrətli ordu,
Qəhrəmanlar, igidlər ana yurdu qorudu.
Açıram tarixin həmin şanlı səhifəsin,
Görürəm 70-lərin mübarizlik töhfəsin.
Əbülhəsənov Hidayətlə Zamanov Fazil
Etdilər düşmənləri tutduğu işə rəzil.
Şahverdiyev Mübarizlə İsmayılov Mehman
Qanlarıyla yazdılar Şəhidlik adda dastan
Sadalamaqla bitməz igidlərin ad-sanı,
Qürur mənbəyimizdir Şəhidlər xiyabanı.

...Yolum düşür bu müqəddəs məkandan,
İllər geri dönür sanki o andan.
Gözlərim önündən keçir məzarlar,
Şəhidlik andını içir məzarlar.
Orada yaşlı bir qadın görürəm,
Əlində bükülü al qərənfillər.
Şəhid anasıdır yəqin edirəm,
Məzarın önünə sərilir güllər.
Nigaran nəzərlə baxır məzara,
Dağlayır könlümü şəhid anası.
Zaman dəyişsə də silinmir heç vaxt,
Ananın qəlbindən oğul yarası.
Deyir Çəmən xala: Oğlum Mehmanın
Şəhidlik adıyla öyünürəm mən.
Məğrur oğulları var olduqca bil,
Əyilməz, bükülməz yaşayar Vətən!
Çəmən xala bir bayatı söyləyir,
Şəhidlərin ruhunu yad eyləyir:
Əzizim Vətən gərək,
Düşmənə kəfən gərək.
Şəhid olub oğullar,
Vətən, Vətən deyərək.

Günlər aylar oldu, aylarsa illər,
Düşdü salnaməyə yeni fəsillər.
Göy üzü buluda qərq olan zaman,
Bir Günəş parladı, çəkildi duman.

...Dəydi Oğuz yurduna ulu Heydər qədəmi,
Tufanları dəf etdi sahibsiz qalmış gəmi.
Sədərək-Dilucu, "Ümid" körpüsü çəkildi,
Naümid ürəklərə ümid gülü əkildi.
Sökülüb məhv edildi aradakı məftillər,
Qovuşdu bir-birinə həsrət dolu könüllər.
Qardaşlıq mahnısını oxudu Araz çayı,
Gəldi ömrümüzün güllü, çiçəkli ayı.
Xalq öz xilaskarına əbədiyyət yaratdı,
Onun şücaətilə millət nicata çatdı.
İnsanların qəlbində yarandı böyük dastan,
Atəşkəslə kəsildi su yerinə axan qan.
Keçmişi xatırlayıb, düşüncəyə dalıram,
Xalqımın folkloruna geniş nəzər salıram.
Yüz illərdi dillərdə səslənir bayatılar,
İgidlərin şəstinə bəslənir bayatılar:
Əzizim Ordubada,
Yol gedir Ordubada.
Sərkərdə igid olsa,
Verməz heç ordu bada.
Vətənpərvər el oğlu torpağını qorudu,
Yadlara baş əymədən yaşadı Oğuz yurdu.

...24 il öncə açıldı yeni səhifə,
Şəhərimə, kəndimə olundu böyük töhfə.
Pöhrələdi, boy atdı bağlarda gül-çiçəklər,
Bir amalla, məqsədlə vurdu bütün ürəklər.
Ordumuzun qüdrəti günü-gündən çoxaldı,
Bədxah qonşularımın canına qorxu saldı.
Polad kimi bərkidi silah tutan oğullar,
Gerçəkliyə çevrildi əfsanələr, nağıllar.
Əvvəl heç bir evdə tapılmazdı qaz, işıq,
Uzaqdakı qohumla baş tutmazdı danışıq.
O ağrılı illəri hərdən yada salırıq,
Firavan gələcəyin müjdəsini alırıq.
Sevincə çevrilibdir artıq həmin qüssələr,
Növrağına qovuşub bu gün hərbi hissələr.
Hətta dağın başında yaradılıb istilik,
Ürək açır görəndə kazarmada təmizlik.
Vətənin keşiyini çəkən oğlun anası
Qədirbilən dövlətə edir xeyir-duasın.

Ötən ay yolum düşdü ön xətdəki bölməyə,
Gördüm dik baxışları, şücaətli qolları.
Mətin addımlar ilə qalxdılar dağ başına,
Yağış, külək, duman, çən bağlasa da yolları.
Görüşüb söhbət etdim həmin oğullar ilə,
Əsgər məktubu gördüm mən birinin əlində.
Könlüm pərvaz eylədi munis duyğular ilə,
Eşidəndə məktubu o əsgərin dilindən.
Deyir: – Yazmışam, mənim əziz anam və atam,
Heç nigaran qalmayın keçir xidmətim əla.
Burada öyrənmişəm ər, ərənlik dərsini,
Aydınlıq gətirmişəm çox qaranlıq suala.
Komandirlər bizimlə böyük qardaş kimidir,
Onlardan öyrənirik dərin bacarıq, bilik.
Bədənim də bərkiyib, elə bil daş kimidir,
Görən deyir düşübdür, yaman sənə əsgərlik.
Əzəldən söylənibdir dost dar gündə sınanar,
Burada dərk etmişəm bu cümlənin hikmətin.
Dost olan şəxs dostunun zəhmətinə qatlanar
Dəyəri çox böyükdür "dostluq" adlı sərvətin...

Oğlunu əsgərliyə göndərən Sənəm xala
Deyir: – Get xidmət eylə adına layiq, bala.
Söhbət açır yurdumun obasından, elindən,
Bir bayatı səslənir o an onun dilindən:
Bu dağlar, ulu dağlar,
Əzəldən ulu dağlar.
Dostuna arxa olar,
Düşmənə yolu bağlar.
Əsgər gedən nəvəsin vəsf edir Şövkət nənə,
Sözlərinin hiddəti təsir eyləyir mənə:
Əzizim əsgər gedər,
Sərhədə sipər gedər.
Bu yurda xor baxanı,
Ölümdən betər edər.
Möhsün kişi oğlunu yola salır xidmətə,
Bayatıyla oğlanı səsləyir qətiyyətə:
Əzizim, əsgər oğlum,
Qoru yurdu, nər oğlum.
Yadlara boyun əyməz,
Namərdi əzər oğlum.

...2017-nin bir payız səhərində,
Ulu Şərqin qapısı Naxçıvan şəhərində.
Təntənəli surətdə keçirildi bir parad,
Bütün aləmə saldı böyük səs-səmir, parad.
Ordu salnaməsinə bəxş edildi bir vüqar,
Lərzə düşdü canına, həşir qopardı haylar.
Gördü bütün dost, düşmən
ordumun qüdrətini.
Müasir texnikanın
döyüş məharətini.
Nizamlı addımların
sədasın aldı düşmən.
Zirehli maşınların
zəhmində qaldı düşmən.
Bildilər ki, Babəkin, Koroğlunun nəvəsi,
Qolundadır qüvvəti, dilində haqqın səsi.
Yeridikcə texnika düşdü yollara ləpir,
Erməni qozbellisi qazdı özünə qəbir.

...2018-in yetişdi may günləri,
Həsrətin, intizarın açıldı düyünləri.
Mübariz əsgərimiz döyüş andını içdi,
Qondarma sərhədləri ayaqla əzdi, keçdi.
Yazıldı "Günnüt" adlı qalibiyyət nəğməsi,
Doğma torpağımızda ucaldı azan səsi.
Qayıtdı günnütlülər əziz, ana torpağa,
Xatirələr oyandı, ürəklər döndü dağa.
Məzarların önündə surə, ayə oxundu,
Yaradıcı əllərin nəvazişi toxundu.



İndi Günnütümdə ucalır göyə
Şəhid qanlarından güc alan bayraq.
Qalxıbdır əlçatmaz yüksək zirvəyə,
Zəfər məramıyla ucalan bayraq.

Həsrətin, hicranın sonu gəlibdir,
Geyməyə qələbə donu gəlibdir,
Qəddar ermənidən onu gəlibdir,
Bata bilməyibdir bir ər oğula,
Adil Tatarov tək bir nər oğula.

Çağırır bizi Günnüt, qonağım ol, – söyləyir.
Yurddaşının yolunu neçə ildir gözləyir.
Gəlin onun hüsnünə bayatılar söyləyək.
Bu eldən köçənlərin ruhunu şad eyləyək.

Əzizim, Günnütə gəl,
Şərura, Günnütə gəl.
Yad əlində qalmayan
Çiçəkli cənnətə gəl.

Əzizim, Günnüt gülər,
Gün gülər, Günnüt gülər.
İgidləri coşanda
Günnütün üzü gülər.

Əziziyəm torpağın,
Vüqarlı ulu dağın.
Naxçıvan verməz yada
Bircə qarış torpağın.

...Bax beləcə güclənir günü-gündən ordumuz,
Əminli əllərdədir torpağımız, yurdumuz.
Məktəblərdə yetişir gələcəyin əsgəri,
Yeni metodlar ilə keçilir hərbi dərsi.
Silahlarla məşq edir, tanıyırlar səngəri,
Yüksək keyfiyyətiylə seçilir hərbi dərsi.
Əsası qoyulubdur ötən əsrin sonunda,
Keçən müddət ərzində dəyişibdir donun da,
Bacarıqlı kadrları hazırlamaq yönündə
Yetişir ölkəmizin dadına hərbi lisey.
Çalışır layiq olsun adına hərbi lisey.



...2018-in 23-ü iyunda
Yeni naxış parladı şəhərimin donunda.
Döyüş Şöhrəti Muzeyi qapılarını açdı,
Silah, sursat, texnika sərgiləndi bir parkda.
Düşməni kədər boğdu, üzünün rəngi qaçdı
Sosial mediadan oxuyanda bu haqda.
İndi həmin məkanda ətrafı seyr edirəm,
Düşüncələr içində addım-addım gedirəm.
Bir az keçəndən sonra görürəm bir mənzərə,
Nəzərimə eyləyir böyük təsir, mənzərə.
Bir ata bərk tutubdur övladının əlindən,
Nəql olunur bu sözlər orda onun dilindən.
Deyir: – Bu yurdda bir vaxt tapılmayıb silahlar,
Heç kim belə ordunu təsəvvür etməz idi.
İndiki tək olsaydı qüdrətimiz, gücümüz,
Qədim Kərki kəndi də işğala getməz idi.

Qələbələr gözləyir Nuhun məmləkətini,
Sinə gərməklə qırıb blokada səddini.
Təlimlərdə bərkiyir, mətin olur oğullar,
Düşmən geri çəkilir, aşa bilmir həddini.
Dövlət-xalq-ordu birliyi əzm, təməl yaradıb,
Bu vəhdəti söz deyil, inam, əməl yaradıb.
Ordumuz malik olub yeni gücə-qüdrətə,
Görən əhsən söyləyir bu şana, bu şöhrətə.
Ürəklərdə çağlayır ana yurdun sevdası,
İnamlı addımların hələ çoxdur sədası.

Səslənəcək elimizdə
Zəfər, qələbə nəğməsi.
Oxunacaq dilimizdə
Müstəqil, muxtar yurdun
Ordu salnaməsi...

✍ **Nail ƏSGƏROV**

***Bu poema "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

## Ağır atletimizdən daha bir uğur

***Bakı şəhərinin Xırdalan qəsəbəsindəki "Zirvə" İdman Klubunda ağır atletika üzrə Azərbaycan çempionatı keçirilib.***



Çempionatda qaliblər Sinkleyr cədvəli üzrə müəyyən edilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur rayon ağır atletika bölməsinin üzvü Tərmenxan Babayev də həmin çempionatda iştirak edib və 90 kiloqram çəki dərəcəsində qalib adını qazanıb. O, birbaşa qaldırmada 140, təkanla qaldırmada 160 kiloqramın öhdəsindən uğurla gəlib.

İdmançımız təşkilatçılar tərəfindən mükafatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

### Bildiriş

"Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin adı dəyişdiriləərək "Gəmiqaya Meyvə Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 426